**PƏRVİN QAÇAYEVA**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**e-mail: pervin.qachayeva@gmail.com**

# X SİNİFDƏ ƏDƏBİYYAT DƏRSINDƏ MOLLA PƏNAH VAQİFIN "PƏRİ" QOŞMASININ DİL XÜSUSIYYƏTLƏRİNİN ÖYRƏDİLMƏSİ

**Açar sözlər:** səs, qafiyə, məcaz , intonasiya , bədii dil , metafora , təşbeh.
**Keys words:** sound, rhythm, intonation, artistic language, metaphor, ingenuity
**Ключ слова:** голос, рифма, иносказание, интонация, художественный язык, метафора, метонимия

V sinifdən başlayaraq bədii mətnlərin dili üzərində müntəzəm iş aparılır. Bu işin siniflər üzrə təşkili , yuxarı siniflərdə də davam etdirilir.

Orta məktəbdə Molla pənah Vaqifin əsərlərinin tədrisinə yetərincə yer verilib.Bu isə sənətkarın əsərlərindən çıxış edib, dilimizin necə bir poetik gücə , estetik gözəlliyə malik olduğunu göstərməyə imkan verir.

Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan müqtədir sənətkarlarımızdan biridir. Xalq-aşıq şeirinin klassik ədəbiyyat üzərində qələbəsini nümayiş etdirən Vaqif poeziyası həm məna-məzmun gözəlliyi , həm də forma əlvanlığı ilə diqqəti çəkir.Azərbaycan xalqının uzun zaman yalnız ağız ədəbiyyatında yaşayan milli şeir ölçüsü heca vəznini yazılı ədəbi dilimizə gətirmişdir.Vaqif Azərbaycanın elat dilli şairidir. Ümumxalq dilli şeirimizin zirvəyə qalxması Vaqifin adı ilə bağlıdır. Dildə elə söz və ifadələr vardır ki , onları ilk dəfə Vaqifin dilində görürük.

"Pəri" qoşmasının dil xüsusiyyətlərinin öyrədilməsi prosesində şagirdlərin müstəqil işinə geniş yer vermək lazımdır."Pəri "qoşmasındakı gözəlin təsvirini müstəqil oxuyan şagirdlərə tapşırıqlar verilmişdir. Müstəqil iş üçün müəyyənləşdirilən bu tapşırıqlara şagirdlər yazılı cavab hazırlamışlar.

Vaqif qoşmalarındakı təşbehlərin spesifik xüsusiyyətlərindən danışarkən belə bir fikir vurğulanır ki , qoşmalarda işlədilən bənzzətmə ,təşbeh və istiarələrin hamısı kənd həyatı ilə , elat ,el -oba şəraiti ilə bağlıdır...(2.səh 75)

Üzərində iş aparılan qoşmada gözəlin təsviri çox maraqlıdır; Gözəlin boyu , bədəni ,yaşılbaş sonaya bənzədilməsi , dilinin şirinliyi , belinin, ağzının ,dilinin , dodağının nazikliyi bədii vasitələrlə əks olunmuşdur.

İlk növbədə qoşmadakı çətin sözlərin mənası aydınlaşdırılmış , sonra şagirdlərə aşağıdakı suallara şifahi cavab vermələri təklif olunmuşdur:

Bu qoşmanın oxusu sizə necə təsir etdi, gözəlin təsviri sizdə hansı hissləri oyatdı?

Cavablar məzmununca az fərqlənir:

“Bu qoşmanı oxuyanda gözəlin boyu, duruşu, bədəninin incəliyi , hərəkəti, davranışı gözümün önündə canlanır. Bu xüsusiyyətlər əsl Azərbaycan xanımına aid xüsusiyyətlərdir.

Yazılı cavab hazırlamağı tələb edən tapşırıq şagirdlərə aşağıdakı məzmunda təqdim edilmişdir:

1. Qoşmadakı hansı sözlər diqqətinizi daha çox cəlb etdi? Nə üçün?
2. Qoşmadakı gözəli siz necə təsvir edərdiz?
3. Təsvir olunan Pərinin gözəlliyini qoşmadakı sözlər , cümlələr necə çatdırır?

Hazırlanan cavablar , xüsusən ilk vaxtlar səviyyəcə xeyli fərqlənir. Bu istiqamətdəki işin müntəzəm aparılması fərqlərin azalmasına , cavabların əksəriyyətinin daha əhatəli olmasına şərait yaradır.

İlk mərhələdə hazırlanan və yüksək səviyyəli cavablardan hesab edilən bir işdə oxuyuruq:

Bu qoşmada mənim üçün maraqlı sözlər çoxdur.Bu sözlərdə “sürahi” ,” cüda”, “ binadan”, “ sərdən” və s.

Maraqlıdır ki, cavabların əksəriyyətində məhz bu sözlər göstərilmişdir. Lakin birinci sualın ikinci tərəfinə verilən cavablar xeyli fərqlidir. Şagirdlərdən bəziləri bu sözlərə , ümumiyyətlə az rast gəldiklərini qeyd etməklə fikirlərini əsaslandırmağa çalışmışlar.

Tapşırıqdakı ikinci sual şagirdlər tərəfindən maraqla qarşılanmışdir. Lakin onların şeir üzərində apardıqları əməliyyatın hamıdını uğurlu saymaq olmaz. Bu sual şagirdləri təkcə sözlərin sinonimlərini axtarmağa sövq etməmişdir., onları obrazlı düşünməyə yönəltmişdir.

İlk iki sual tapşırığın üçüncü sualına əhatəli cavab hazırlanması üçün zəmin rolunu oynamışdır. Səviyyəcə yüksək olan işlərdə təsvir olunan gözəlin valehedici olması dönə- dönə qeyd edilir. Hansı sözlərin daha çox emosionallıq doğurması nəzərə çarpdırılır. Belə cavabların birində oxuyuruq: “ Qoşmada oxuduğum sözlərin bir neçəsinə birinci dəfə idi ki, rast gəlirdim. Onların mənasını öyrəndikcə qoşmadakı fikirlər mənim üçün daha aydın olurdu.

Yazılı cavabların dinlənilməsi prosesində onların təhlilində həyata keçirilir. Müəllim şagirdlərdə yaranan fikri dəqiqləşdirir: Qoşmadakı gözəlin təsvirinin Oxuculara güclü təsir bağışlamasının əsas səbəbi onun sənətkarlıqla yazılmasıdır ,sözlərin ustalıqla seçilməsi və işlədilməsidir.

Dil faktlarının üzərində müntəzəm aparılan iş təkcə bədii əsərin məzmununun dərindən qavranılmasına , sənətkar niyyətinin başa düşülməsinə səbəb olur, o, həmçinin şagirdlərdə estetik zövqün

formalaşmasına , şifahi və yazılı nitqin inkişafına da əhəmiyyətli təsir göstərir.

Molla Pənah Vaqif şeirlərinin ideya-məzmununun şagirdlərə çatdırılmasının böyük təlim-tərbiyə əhəmiyyəti vardır.Çünki onun əsərlərinin dili xalqın canlı danışıq dilinə çox yaxındır. Şair sözün gözəlliyini , estetik funksiyasını qoruyub saxlamış, onu daha da yaxşı cilalaya bilmişdir. M.P.Vaqifin əsərlərinin dili və üslubu obrazlı , bədii dilin ən kamil nümunələridir. Şair ifadə etmək istədiyi ideyanı , fikri obrazlı bir dillə yəni, özünəməxsus bir ustalıqla oxucuya çatdırır.

Sənətkarın öz əsərlərinin dili üzərində necə işləməsi haqqında məlumatı isə hər bir ədəbi əsərin tədrisinə ayrılmış dərs saatlarında vermək lazımdır. Belə olduqda şagird sənətkarın "söz əzablarını ", onun yaradıcılıq çətinliklərini dərindən hiss edər və əsərin öyrədilməsinə ayrılmış sonrakı saatlarda ədəbi əsərə marağı , diqqəti daha da artar. (3.səh42)

Dil faktları üzərində müntəzəm aparılan iş təkcə bədii əsərin məzmununun dərindən qavranılmasına ,yaıçı niyyətinin başa düşülməsinə səbəb olmur, o,həmçinin, şagirdlərin estetik zövqünün formalaşmasına ,şifahi və yazılı nitqin inkişafına da əhəmiyyətli təsir göstərir. Əsərin dil-üslubunun öyrənilməsinin böyük təlim - tərbiyəvi əhəmiyyəti vardır.Dilin öyrənilməsi əsərin məzmununu , onun obrazlarını , digər kompanentlərini dərindən mənimsəməyə xidmət etməklə bərabər həm də şagirdlərin nitqinin inkişafına , söz duyumunun artmasına , danışığının səlisliyinə , təsirli olmasına kömək edir.

## Ədəbiyyat:

1. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, "Bakı" nəşriyyatı, 2017
2. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, "Bakı" nəşriyyatı, 2017
3. Dursun Məmmədov Ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsi metodikası Bakı,1997
4. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, "Müəllim", 2016
5. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim(müəllim üçün vəsait). Bakı, 2009
6. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, ADPU-nun nəşri, 2017

**P.Gachaeva**

**"Perry" joined the study of language features of Molla Panah Vagif in literature lessons in class X**

**Summary**

Molla Panah Vagif poem of great educational value of the language is very close to the spoken language of the people living vardır.çünki ideya-məzmununun students delivery of his works. Poet of the word beauty, aesthetic function, they could keep better lap M.P.Vagif figurative language and style, artistic language are perfect examples of works. View image of a language that is a skill to readers to the idea, expressed the poet.

His own works on literary works and how information about each allocated for teaching hours should be given in the language of. In this case, his work deeply felt in the hours allocated for teaching of literary works, attention will further increase the interest of students "said their pain" and difficulty of his later works.

Facts over fiction, he also does not lead to the formation of aesthetic taste, oral and written speech, and development of a significant effect on the students understand the deep understanding of the intentions, yaıçı to work only regular languages . Studying of language and style of the piece has great significance. Studying of language, along with serving for deeper appropriation of the content of piece, its characters, other components, aids for students to develop their speech, to increase their word sense, and to make their speech and communication for effective and fluent. In written responses to hear their analysis carried out on. Specifies the idea of having a student teacher: Connect Readers with some excellent description of the reason for his masterful writing skill selection and use of the word is is impressive.

**П. Гачайева**

**X на уроке литературы Моллы Панаха Вагифа в классе "Пери" qoşmasının изучения особенностей языка**

**РЕЗЮМЕ**

Идейа доставки контента и его учеников огромное воспитательное значение. Потому что его произведений живой разговорный язык очень близок к языку народа. Паэт слова красоту, эстетические функции сохранил его еще лучше, сумел исправить. Язык и стиль художественного языка являются совершенной образно, М.Р.Вагиф

произведений. Поэт хотел выразить идею о том, что образно, то есть, присущим ему мастерством, доводит до читателя на одном языке.

Язык своих произведений мастера литературного произведения, выделенных в преподавании уроков надо дать информацию о каждой работы над как же. Тогда ученик мастера "слова страдания" его творческие трудности в последующие часы литературных произведений, еще больше внимание к обучению, будет чувствовать глубоко и произведения.

На регулярно проводимых дело не только в том, что не способствует формированию и развитию устной и письменной речи учащихся, а также пониманию содержания художественного произведения, глубоко qavranılmasına yaıçı, эстетического вкуса, значительно влияет на факты язык. Большое воспитательное значение имеет обучение - язык-стиля изучения трудов. Письменные ответы слушание в процессе их в анализе осуществляется. Учитель уточняет у школьников, возникшая мысль: Сильное влияние на его словам, основная причина в том, что işlədilməsidir мастерски мастерством bağışlamasının qoşmadakı красотки описания Читателям.

**Rəyçi: Nazilə Abdullazadə**
**Filologiya üzrə fəlsəfə doktoru, doesent**